**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI**

**“HUMANİTAR FƏNLƏR” KAFEDRASI**
**BAKALAVR HAZIRLIĞI ÜÇÜN**

# “POLİTOLOGİYA”
**fənni üzrə tədris**

# PROQRAMI

**BAKI – 2012**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASI**

**"HUMANİTAR FƏNLƏR" KAFEDRASI**

**BAKALAVR HAZIRLIĞI ÜÇÜN**

## "POLİTOLOGİYA"

**fənni üzrə tədris**

# PROQRAMI

050614 – Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi
050640 – yanğın təhlükəsizliyi mühəndisliyi və digər ixtisasların geniş spektri üçün işlənmişdir

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-metodiki Şurasının "Sosial-siyasi elmlər" bölməsinin "17" fevral 2012-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir

**DOİ: https://doi.org/10.36719/2012/16**

**BAKI – 2012**

***Proqramın tərtibçisi:*** *fəlsəfə üzrə fəlsəfə doktoru* ***Ə.A.Orucov***

***Elmi redaktor:*** *fəlsəfə üzrə fəlsəfə doktoru, dos.* ***M.Ə.Əfəndiyev*** *(BDU)*

***Rəyçilər:*** *fəlsəfə üzrə fəlsəfə doktoru, dos.* ***A.S.Rüstəmov*** *(BDU)*
*siyasi elmlər üzrə fəlsəfə doktoru* ***Ş.X.Bağırov*** *(AMEA)*
*siyasi elmlər üzrə fəlsəfə doktoru* ***İ.M.Ağayev*** *(AMEA)*

# İZAHAT VƏRƏQİ

Hazırkı şəraitdə politologiya fənninin dünya siyasətində və beynəlxalq siyasi münasibətlərdə baş verən mürəkkəb siyasi proseslər kontekstində öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir və özünəməxsus aktuallığı ilə səciyyələnir. Son illər respublikamızda cəmiyyət həyatının bütün sahələrində, eləcə də siyasi, iqtisadi və təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. Mənəvi həyatın xüsusi sferası olan təhsil sahəsindəki islahatların məqsədi onu daha da təkmilləşdirməkdən, müasir dövrün tələblərinə uyğunlaşdırmaqdan və dünya standartlarına cavab verməkdən ibarətdir. Bu islahatlar humanitar-sosial elmlərin, eləcə də politologiyanın tədrisi sahəsində müəyyən əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.

Politologiyanın predmetini təşkil edən siyasət insanların həyat fəaliyyətinin bütün sferalarına nüfuz və təsir edir. Təsadüfi deyil ki, gündəlik həyatda siyasətin rolu daim artır. Bu baxımdan hazırda siyasət haqqında elm olan politologiyanı dərindən və əhatəli mənimsəmək cəhdi ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatların uğurlu həllində cəmiyyət üzvlərinin fəallığına ciddi təsir göstərə bilər. Cəmiyyət üzvlərinin siyasi biliyinin artırılmasında, onların siyasi həyata fəal cəlb edilməsi metodlarından biri tədris müəssisələrində siyasi biliklərin mənimsədilməsidir. Məhz politologiya fənni də məhz bu çətin və olduqça məsuliyyətli vəzifənin yerinə yetirilməsinə xidmət edir. O, tələbələrin siyasi dünyagörüşünün formalaşmasına, siyasi elm haqqında bilik və təsəvvürlərinin dərinləşməsi əsasında

onlarda siyasi şüur və mədəniyyətin formalaşmasında səmərəli rol oynayır.

Zənnimizcə, bu proqram politologiya fənninin aktual əhəmiyyət kəsb edən problemləri ilə maraqlananların siyasi, təfəkkür tərzinə və siyasi dünyagörüşünün zənginləşməsinə, kursant və müəllimlərin də tələbatının ödənilməsinə müəyyən faydalı təsir göstərəcəkdir.

**I mövzu: Politologiya siyasət haqqında elmdir**

Politologiya elminin təşəkkül tarixi, əsas xüsusiyyətləri, inkişaf qanunauyğunluqları və predmeti. Politologiyanın kateqoriyaları, funksiyaları, metodları və sosial-humanitar elmlər sistemində yeri. Antik dünyada siyasət, dövlət və hakimiyyət haqqında təsəvvürlər. İntibah və maarifçilik dövrlərinin, XIX-XX əsrlərin siyasi ideyaları.

**II mövzu: Azərbaycanda siyasi fikrin meydana gəlməsi və inkişafı**

Qədim dövrdə ictimai-siyasi fikir, onun xüsusiyyətləri və mənbələri.Qədim və Orta əsrlərdə Azərbaycanda siyasi ideyalar. Orta əsrlərdə Azərbaycanda ərəb xilafətinə qarşı siyasi mübarizənin güclənməsi. Xürrəmilərin ictimai-siyasi fikirləri. Maarifçilik ictimai-siyasi hadisə kimi. XIX əsrdə Azərbaycanda maarifçilik ideyalarının inkişafı (A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, M.A.Şaxtaxtlı və İ.Qutqaşınlı).

XX əsrin əvvəllərində Azərbaycanda siyasi proseslər və siyasi fikir. Sovet Azərbaycanında siyasi ideyalar və ictimai –siyasi fikrin inkişaf xüsusiyyətləri. XX əsrin 90-cı illərində Azərbaycanda milli azadlıq mübarizəsinin güclənməsi və siyasi fikir. Müstəqil Azərbaycan Respublikasının yaranması. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunması (2 mart 1992). Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti və ictimai-siyasi görüşləri. Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması və qüvvəyə minməsi.

Dövlətçiliyimizin İlham Əliyev mərhələsi.

**III mövzu: Siyasi hakimiyyət**

Siyasi hakimiyətin məzmunu və təzahür xüsusiyyətləri. Hakimiyyət və sosial hakimiyyət anlayışları, onların əlaqəsi. Hakimiyyətin tipləri və onun legitimliyi problemi. Siyasi hakimiyyətin funksiyaları və müasir inkişaf meyilləri. Siyasi liderlik. Siyasi liderliyin təsnifatı (avtoritar, totalitar, liberal və demokratik liderlər). Dövlət başlıca siyasi təsisat kimi. Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvi xüsusiyyətləri. Dövlətin formaları. Hüquqi dövlət. Dövlətin əsas funksiyaları. Dövlət hakimiyyətinin fəaliyyət mexanizmi. Müasir dövlətin inkişafında yeni meyillər. Dövlət beynəlxalq münasibətlər sistemində.

**IV mövzu: Siyasi partiyalar və partiya sistemləri**

Siyasi partiya anlayışı. Partiyaların mənşəyi, təşəkkülü və mahiyyəti. Siyasi partiyaların təsnifatı və funksiyaları. Siyasi partiyalar haqqında müxtəlif baxışların müqayisəli təhlili. Partiya sistemləri: tipləri, inkişaf meyilləri. Çoxpartiyalı və təkpartiyalı siyasi sistemlər.

**V mövzu: Siyasi demokratiya**

Siyasi demokratiya anlayışı. Demokratiya spesifik siyasi fenomendir. Demokratiyanın sosial hadisə kimi mahiyyəti. Demokratiyanın tarixi inkişafı, mərhələləri. Demokratiya haqqında əsas nəzəriyyələr. Siyasi demokratiyanın mahiyyəti, məzmunu və universal xarakteri.Demokratik prinsiplər. Siyasi demokratiyanın formalaşma mexanizmi və ziddiyyətləri. Demokratiyanın formaları. İnsan hüquqları və azadlıqları. Azərbaycan Respublikasının Konstitusiyası – hüquqi və dünyəvi demokratik dövlətin əsas qanunudur.

**VI mövzu: Parlament başlıca demokratik təsisatdır**

Parlamentin meydana gəlməsi və tarixi təkamülü. Parlament anlayışı: mahiyyəti, səlahiyyətləri və funksiyaları. Parlamentin strukturu. Parlament partiyaları. Azərbaycan Respublikasının parlamenti. İlk Azərbaycan parlamenti. Milli Məclisin təşəkkülü, formalaşması, inkişaf xüsusiyyətləri və qanunauyğunluğu.

**VII mövzu: Seçki sistemləri**

Seçkilər siyasi sistemin yeniləşməsi texnologiyası kimi. Seçkinin mahiyyəti, prinsipləri və funksiyaları. Seçki sisteminin tipləri. Seçki sistemlərinin müqayisəsi. Seçki kampaniyasının strategiyası və taktikası. Seçkilər cəmiyyətin demokratikləşməsinin əhəmiyyətli şərtidir.

**VIII mövzu: Siyasi rejimlər**

Rejim anlayışı. Siyasi rejim haqqında ilk təsəvvürlər. Siyasi rejimin mahiyyəti və təsnifatı. Totalitar, avtoritar və demokratik siyasi rejimlərin təzahür xüsusiyyətləri. Qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçid. Demokratik siyasi rejimin başlıca siyasi-hüquqi dəyərləri.

**IX mövzu: Siyasi şüur və siyasi ideologiya**

Siyasi şüur anlayışı.Siyasi şüurun səviyyələri. Siyasi şüurun strukturu və funksiyaları. Siyasi şüurun ideoloji məzmunu. İdeologiya anlayışı. İdeologiyaların formaları və funksiyaları. İdeologiya və siyasət, onların qarşılıqlı əlaqəsi, siyasi ideologiyanın səviyyələri və funksiyaları. Müasir ideoloji cərəyanlar.

**X mövzu: Siyasi mədəniyyət**

Mədəniyyət anlayışı və onun başlıca komponentləri. Siyasi mədəniyyətin mahiyyəti, məzmunu, strukturu. Siyasi mədəniyyətin funksiyaları və tipləri. Totalitar, avtoritar və demokratik siyasi mədəniyyət. Siyasi sosiallaşma anlayışı. Şəxsiyyətin siyasi sosiallaşması.Siyasi sosiallaşmanın vasitələri və mərhələləri. Siyasi iştirakçılıq.

**XI mövzu: Siyasi münaqişələr və konsensus**

Siyasi münaqişələr nəzəriyyəsi. Siyasi münaqişələrin mahiyyəti, meydana gəlmə səbəbləri və növləri. Dövlətlərarası, siniflərarası, millətlərarası, etnik, qruplararası və digər siyasi münaqişələr. Lokal, regional və qlobal münaqişələr. Siyasi münaqişələrin tənzimlənməsi və həlli mexanizmi, üsul və metodları. Konsensus siyasi münaqişələrin həllində vacib şərtdir. Konsensusa nail olmağın əsas şərtləri. Siyasi konsensusun obyektiv və subyektiv çətinlikləri. Münaqişənin həllində dialoq və danışıqların əhəmiyyəti. Siyasi münaqişələrin həllində beynəlxalq təşkilatların rolu və vasitəçilik missiyaları. Dünyada, o cümlədən MDB-yə üzv ölkələrdə siyasi münaqişələr. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi.

**XII mövzu: Vətəndaş cəmiyyəti**

Vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyəti. Vətəndaş cəmiyyətinə konseptual yanaşma. Vətəndaş cəmiyyətinin strukturu və inkişaf istiqamətləri. Vətəndaş cəmiyyəti və dövlət. Hüquqi dövlət və vətəndaş cəmiyyəti demokratik cəmiyyətin mühüm tərəfidir.

**XIII mövzu: Siyasət cəmiyyətin həyat fəaliyyətinin başlıca sferasıdır**

Siyasətin mahiyyəti və başlıca cəhətləri. Xüsusi sosial fenomen olmaq etibarilə, siyasətə konseptual yanaşma. Siyasi münasibətlərin məzmunu və xarakteri. Siyasi münasibətlər və siyasi mənafelər. Siyasət siyasi mənafelər sferası kimi. Siyasi inkişaf və siyasi proses, anlayışları, onların qarşılıqlı əlaqəsi. Siyasi elita, onun mahiyyəti və siyasətdə rolu. Siyasi elitanın formalaşma prosesi və mexanizmi, təsnifatı və funksiyaları. Siyasət və din. Siyasi münasibətlərin dində ifadəsi.

**XIV mövzu: Beynəlxalq münasibətlər və xarici siyasət**

Beynəlxalq münasibətlərin mahiyyəti və problemləri. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq münasibətlər. Dünya siyasətinin istiqamətləri və xüsusiyyətləri. Müasir siyasi qaydaların formalaşmasını şərtləndirən amillər. Milli mənafe və qlobal siyasi problemlər. Xarici siyasət və beynəlxalq əməkdaşlıq. Müharibə və sülh problemləri.

**XV mövzu: Geosiyasət və müasir dünya**

Müasir geosiyasi inkişafın meyilləri və xüsusiyyətləri. Geosiyasi nəzəriyyələr və onların mahiyyəti. Müasir dünyanın inkişafı barədə müxtəlif nəzəriyyələrin sosial-siyasi kökləri və ideya-nəzəri mənbələri. Müasir siyasi nəzəriyyə və doktrinaları səciyyələndirən cəhətlər. “Roma Klubu”, onun yaranması, fəliyyəti və inkişafını şərtləndirən amillər.

“İndustrial”, “postindustrial”, “texnotron” cəmiyyətlər haqqında doktrinalar. Dünyanın siyasi qloballaşması haqqında yeni konsepsiyalar.

“Politologiya” kursunun tədrisinə ayrılan saatların mövzular üzrə paylanması

| № | mövzu | mühazirə | məşğələ |
|---|---|---|---|
| 1 | Politologiya siyasət haqqında elmdir | 2 | 2 |
| 2 | Azərbaycanda siyasi fikrin meydana gəlməsi və inkişafı | 2 | 2 |
| 3 | Siyasi hakimiyyət | 2 | 2 |
| 4 | Siyasi partiyalar və partiya sistemləri | 2 | 2 |
| 5 | Siyasi demokratiya | 2 | 2 |
| 6 | Parlament başlıca demokratik təsisatdır | 2 | 2 |
| 7 | Seçki sistemləri | 2 | 2 |
| 8 | Siyasi rejimlər | 2 | 2 |
| 9 | Siyasi şüur və siyasi ideologiya | 2 | 2 |
| 10 | Siyasi mədəniyyət | 2 | 2 |
| 11 | Siyasi münaqişələr və konsensus | 2 | 2 |
| 12 | Vətəndaş cəmiyyəti | 2 | 2 |
| 13 | Siyasət cəmiyyətin həyat fəaliyyətinin başlıca sferasıdır | 2 | 2 |
| 14 | Beynəlxalq münasibətlər və xarici siyasət | 2 | 2 |
| 15 | Geosiyasət və müasir dünya | 2 | 2 |
|  | Cəmi: | 30 | 30 |

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Elm,1995.
2. Aristotel. Politika. Bakı: 1997.
3. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: 1997.
4. Mehdiyev R. Azərbaycan:tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı: 2001.
5. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: 2003.
6. Əfəndiyev M.Ə. Politologiya. Dərslik. Bakı: Elm, 2011.
7. Əfəndiyev M.Ə. Siyasi elm. Bakı: Siyasət, 2010.
8. Şirəliyev H.İ., Əhmədov Ə.C. Politologiya. Dərslik. Bakı: Təbib, 1997.
9. İbadov N.S. Müqayisəli politologiya. Bakı: 2010.
10. Yadigar T. Politologiya. Bakı: 2008.
11. Nəbiyev F.H. Siyasi təfəkkür. Bakı: 2003.
12. Piriyev A., Əfəndiyeva X. Sosiologiya və politologiya fənnindən mühazirə mətnləri. Bakı: 2009.
13. Zbiqnev Bjezinski. Böyük şahmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. Bakı: 2011.